Holcim

World Experience in Construction

# From Foundation to Sky with Trust: a New Era of Cement Industry in South Caucasus

**Inauguration ceremony of New Kiln Line, 10 July, 2012**
**Garadagh, Azerbaijan**





## From Raoul Waldburger, General Director of Holcim (Azerbaijan) OJSC

On July 10, 2012, the President of the Republic of Azerbaijan, H.E. Ilham Aliyev, and CEO of Holcim Ltd, Bernard Fontana, took part at inauguration of new kiln line of Holcim (Azerbaijan). The new state-of-the art dry kiln will be the starting point of new era in cement industry of the entire South Caucasus. The dry production method is the most advanced technology in Europe; with efficient water and fuel usage, and being environmental friendly. The 300 million EUR investment is the largest within the non-oil sector of Azerbaijan and contributes to further development of the country by producing local products.

The production facility is completely modernized and replaced the existing four old wet kiln lines into a single new dry kiln line. The implementation of this technology will increase cement production capacity by 30%; from 2600 to 4000 ton per barrel daily (or from 1.3 to 1.7 mln ton annually). Holcim (Azerbaijan) continues its activity in direction of lowering the impact to environment, decreasing emission of gases, implementing innovative alternative fuel resources (AFR) and utilizing waste for sustainable production cycle.

It also covered the construction of train unloading station, storage halls, silos, workshop, warehouse, and technical building, the upgrading of 3 existing cement mills with high efficiency separators, and the opening of the Shakhgaya West Limestone Quarry. This is located approximately 20 km from the plant itself, completed with new crusher, train loading station, rail tracks, ancillary buildings, and other necessary infrastructure. The new dry kiln consumes 50% less energy than the previous kilns, emits 50 times less dust, and decreases water consumption by 500,000 $m^3$ annually. In bringing this project to successful fruition, the project team has exhibited a great deal of perseverance, commitment, and skill.

As part of efficient use of national resources and utilization of waste, from 2010 to current day, around 750.000 ton of oil sludge has been used as an alternative fuel resource. Innovative AFR technology will significantly decrease burden for environment and global emission to the atmosphere. Thus, $CO_2$ and dust emissions are substantially decreasing as the natural resources are being used efficiently. Overall, application of this tool is based on Holcim's global commitment for being the "best in class" which constantly improves sustainability performance.

Holcim operates in more than 70 countries and employs more than 80.000 people. It is a global supplier of cement, aggregates (crushed stone, gravel and sand), ready mix concrete and asphalt. Holcim has been confirmed as a member of the Dow Jones Sustainability World Index since 2003. It is recognized as one of the most sustainable companies worldwide in the construction materials industry. Holcim is also listed in the FTSE4Good Sustainability Index.

## Holcim – global experience in construction!

© 2012 Holcim (Azerbaijan) OJSC



# President Ilham Aliyev attended opening ceremony of a new cement plant of Holcim (Azerbaijan) in Garadagh district of Baku

Dear Friends!
Dear ladies and gentlemen!

I cordially congratulate you in the opening of Holcim (Azerbaijan) cement plant. Three years ago we laid the foundation of this new cement plant. I am very pleased that after three years a wonderful up-to-date new cement plant is being put into operation. I am sure that as a result of this plants production capacity, economy and industrial potential of Azerbaijan will be strengthened and increase even more.

Garadagh Cement Plant was established in 1950s. With the lapse of time technology became outdated and didn't meet the modern requirements any more, even despite the fact that the world's leading company is in this field - Holcim Company worked at this plant for over ten years and made investments. Certainly, it was very important to build up a new plant. As a result of negotiations between the heads of Azerbaijan and Switzerland, agreement was reached to build a new plant. I remember those days very well. I remember that immediately after the decision on this issue was made - in 2009 foundation of a new plant was laid. This plant corresponds to all up-to-date standards. The latest technologies are applied here. It is very pleasant that this plant is environmental friendly.  In Azerbaijan, great attentions are now paid to environmental issues; environmental activities are realized. Of course, we are very pleasant with the fact that this plant is environmentally safe.

At the same time, this plant is a good example of Swiss-Azerbaijani cooperation. Relations between two countries are developing rapidly; reciprocal official visits as well as delegations' visits are made. We have excellent political and economic ties. Putting into operation of Holcim plant in Azerbaijan is an evidence of mutual trust. At the same time, the State Oil Company of the Azerbaijan Republic (SOCAR) has made large investments in Switzerland's power industry. Switzerland invests in non-oil sector of Azerbaijan, and Azerbaijan invests in energy sector of Switzerland. It is a great result. We have many-sided and mutual interests based relations. I am very glad that this plant will further strengthen the Swiss-Azerbaijani friendship.

Big attention is paid to non-oil sector development in Azerbaijan. This is the main direction of our policy. During first 6 months of the current year, non-oil economy grew by more than 11% in Azerbaijan. This is logical result of the work. By efficiently using our energy resources and investing in non-oil sector, we are comprehensively developing our country.

Launch of the plant addresses the issues of strengthening local production as well. We pay close attention to this issue as well. We want the main products consumed in Azerbaijan, to be produced locally. I am sure that as a result cement plant operation we will provide ourselves with cement in a few years. Annual consumption of cement in Azerbaijan is 3.3 million tons. Production capacity of Holcim (Azerbaijan) cement plant is 1.7 million tons. Considering that a plant with production capacity of 300,000 tons was recently put into operation in Nakhchivan, a plant with production capacity of 1 million tons will be put into operation in Agstafa in the near future, and a plant with production capacity of 2 million tons is being built in Garadagh, after several years the volume of cement produced in Azerbaijan will exceed our needs.

© 2012 Holcim (Azerbaijan) OJSC



Our country's economy develops very rapidly. Undoubtedly, domestic demand will certainly increase even more in the future, as large construction and creative projects evolves further. I hope that as a result of this plant's activity, we will be able to export cement in future.

The absolute majority of factory employees - are Azerbaijani citizens. This is very positive fact as well. As a result of this plant's operation hundreds of people are employed. I see many young people here, and I am very glad to this fact. Young people should be more actively participate in this activity. They should take an active part in the most modern production process. Azerbaijani youth should become more active in all areas. Preparation of local staff, establishment of local production, production substituting imports, attraction of foreign investments - we see all these important factors as an example in new plant.

I would like also to note that the foundation of this plant was laid in 2009, when the history entered to the hardest year of the world economic crisis. Despite the crisis and the fact that some banks have found themselves in a difficult situation, Holcim decided to make large investments in Azerbaijan's economy in 2009. This is evidence that the credibility of the Azerbaijani economy and investment climate in Azerbaijan are at very high level. We highly appreciate this step.

Today I take this opportunity to express my special gratitude to Holcim Company's top management and in particular to its former President Mr. Akermann. Together with Mr. Akermann we decided to build this plant. Our decisions were implemented, three years ago, we laid the foundation of the plant and today we are attending the opening ceremony. Generally, the investment climate in Azerbaijan is very positive. Over the past 17 years, more than $ 120 billion has been invested in Azerbaijan. Last year $ 15 billion was invested. It is expected that this year approximately $ 18 billion will be invested. I am sure that in coming years investments will keep on increasing and this will allow us to implement many infrastructure projects in our country, upgrade all outdated infrastructure, to create a powerful industrial potential.

© 2012 Holcim (Azerbaijan) OJSC




Location of the plant in the Garadagh district became possible by natural causes, because here we have deposits of raw materials needed for production. In Soviet time, this plant was built here. Of course, we have specific ideas regarding the future of industrial development of the Garadagh district. I have repeatedly noted that Garadagh district should become one of the new industrial centers of Azerbaijan. Garadagh district develops. Powerful industrial potential will be created here.

Today's opening ceremony makes us very happy. At the same time, it demonstrates that development of Azerbaijan is going in the right direction. Foreign investors believe in us as we create excellent conditions for investments. Relations between government and large companies are also very positive. Foreign investors assist us in building up local production. More over since, the new plant applies the latest and most modern technologies, the issues of technological development and scientific progress are now being addressed more comprehensively in Azerbaijan.

Dear friends, at this ceremony I want to once again express my gratitude to the Holcim Company's top management – to Mr. Akermann and also to the new top management of Holcim. I would like to congratulate you on occasion of this plant opening. I take this opportunity to once again address to our partners and to our foreign investors; Azerbaijan is a great place for foreign investments. Investments are protected. We welcome these investments; we create and keep on creating the best conditions for foreign investors. Once again I cordially congratulate you on this occasion, I wish you good health and new success.

Thank you.

© 2012 Holcim (Azerbaijan) OJSC



## The Ambassador of Switzerland to Azerbaijan, Mrs. Sabine Ulmann Shaban, attended opening ceremony of a new cement plant of Holcim (Azerbaijan) in Garadagh district of Baku

Mr. President, Mr. Minister, Mr. Fontana,
Distinguished Guests.

Mr. President, today you honor Switzerland and Holcim by participating at the official inauguration of the new Holcim Kiln plant. As Mr Akermann invited you last January in Davos for being part of this event, you didn't hesitate to accept the invitation. Azerbaijan and Switzerland are very good partners in many different fields. The realization of the new plant of Holcim is the proof of the vitality of this relationship. Without your support and the one of your government this achievement would not have been possible.

To be good partners, states, like people, need trust in each other. The main characteristic of the good relationship between Azerbaijan and Switzerland is trust and respect for each other. Without these two qualities, Holcim would have never been able to be an important part of the non oil sector's economy here in Azerbaijan. Without this trust, SOCAR, for its part, would have never gone to Switzerland in order to be an important part of the Swiss oil sector's market. These two important Azeri and Swiss companies are the perfect examples of the good collaboration between Azerbaijan and Switzerland on the commercial field.

There is a small city in Switzerland, which plays an important role in the development of the relationship between our two countries: Davos. This small town in the Swiss Alps, known for its beautiful landscapes and for its ski slopes, is now associated with the World Economic Forum, an independent international organization committed in improving the state of the world by engaging business, political and other leaders of society. Mr President, Davos is proud to have you among his guests since many years now. You are an important part of it because you are also committed to shape the world of tomorrow and you know how important it is for the future of your country and all the countries in the world.

In 2009 – you were here for the ground – breaking ceremony and you can see the achievements now. The new plant would have not been possible without the commitment of the Azeri and of the Swiss partners. Your support, Mr President, as well as the support of the Azeri authorities, the dedication of the work force here in Garadagh and the commitment of the management of Holcim in Azerbaijan and in Switzerland was essential for this success. I would like to warmly thank all of you who made this achievement possible. It was a team work. This is important. This new plant is the largest investments in the non-oil sector in Azerbaijan. It is the proof of the good economic collaboration between Azerbaijan and Switzerland. Holcim is one of most successful international companies of Switzerland with a presence in 70 countries. The celebration of its 100 years anniversary in 2012 is also the proof of its success in the construction material industry. Protection of Environment and use of new and clean technologies are priorities of Azerbaijan, of Switzerland and of the Holcim Group. This new plant is one of the best examples of a new state-of-the-art production line using the latest technology. In this sense, this new kiln line will serve as an example for future Holcim kiln projects in the world.

Mr. President, distinguished guests, this event today marks undoubtedly an important milestone for the future development of the economic relations between Azerbaijan and Switzerland, which will, I'm convinced deepen in the future.

© 2012 Holcim (Azerbaijan) OJSC



## CEO of Holcim Ltd, Mr. Bernard Fontana, attended opening ceremony of a new cement plant of Holcim (Azerbaijan) in Garadagh district of Baku

His Excellency Mr. Ilham Aliyev,
President of the Republic of Azerbaijan,
His Excellency, Minister Mustafayev,
Her Excellency, Ambassador Ulmann,
Ministers, Distinguished Guests,

Mr. President, it is a special honor for Holcim Azerbaijan and for me that you are with us today to officially inaugurates the new Kiln plant. I would like to thank you warmly for having accepted the invitation of our former CEO, Mr Markus Akermann during the WEF in Davos in 2012.

Many thanks on behalf of our management and work force here in Garadagh and on behalf of the Holcim Group for your support for the realization of this important project. Holcim Group and Holcim Azerbaijan very much values the constructive engagement and support it receives from all government authorities regarding the necessary permits, permissions and licenses for this important project. Your support was essential for the project.

I am very pleased, that we can celebrate today the inauguration of the new kiln line of Holcim Azerbaijan. The 300 million Euro investment in the new kiln line project is the largest investments in the non-oil sector in Azerbaijan. It is a great achievement for the business cooperation between Azerbaijan and Switzerland, and it is also a major under-taking for the Holcim Group as well.

With its cement, RMX, aggregates operations in over 70 countries, Holcim is recognized as the company with the best sustainability performance in the building materials industry. Our energy saving strategies, efforts in occupational health and safety, and human capital development initiatives have received international recognition. In addition, Holcim is celebrating this year its centennial, and is looking back to 100 years of sound and successful experience in the construction material industry. We see our past and future experience as a part of a journey where we are keen to continue to learn, to improve and to deliver.

Holcim is keen to cooperate with Azerbaijan by bringing new technologies and know-how into the country, creating workplaces, training and developing human capital, improving environmental performance, producing high-quality products and investing to customer care and educational programs. We have demonstrated this over the last 13 years of presence in Azerbaijan, and we will remain as committed as we were in the past.

Construction requires concrete, and concrete's essential ingredient is cement. A thriving society and rapid economic development needs cement. Holcim Azerbaijan is well aware of the important role it plays as principle supplier of this much needed building material. Be assured, we take this responsibility seriously.

© 2012 Holcim (Azerbaijan) OJSC



I would like to express my great respect to our management team and workforce here in Holcim Azerbaijan for their continuous strife in providing the quality and quantity of cement needed by our customers in Azerbaijan. This crew is doing a remarkable job. They have squeezed out the maximum possible to serve the ever growing demand.

Holcim Azerbaijan is now duly ready to turn a new chapter and operate the new state-of-the-art production line using the latest technology, both, in terms of environmental friendliness and process efficiency. The new line will greatly contribute to lower emissions of Holcim Azerbaijan. This will allow replacing old wet lines currently installed in Garadagh plant and still boost capacity by 30% to sustainably supply more locally produced cement to our valuable customers in Azerbaijan.

Mr. President, distinguished guests, this project is a long-term commitment on behalf of Azerbaijan, of Holcim Azerbaijan and of the Holcim Group, providing much needed cement to contribute to the further development of Azerbaijan. This event today marks an important milestone for a prosperous future in the relations between Azerbaijan and Holcim Azerbaijan, and I would like to believe that it is also seen as a strong sign of trust and commitment by Holcim in the prospects of Azerbaijan as a whole.

Thank you very much for your attention.

© 2012 Holcim (Azerbaijan) OJSC

# Holcim in Azerbaijan: Performance excellence and commitment to innovation

In 1999, Holcim Ltd, Switzerland, acquired the majority of the shares of Garadagh Cement plant, one of the largest cement enterprises in the Caucasus countries for its production capacity. Holcim has a stake in the company of approximately 70 percent. Two other legal entities of the shareholders – the European Bank for Reconstruction and Development and Azerbaijan Investment Company have correspondingly 20 percent. Remaining 10 percent of the total number of shares belongs to physical person shareholders.

Considering the economic growth and the company committment towards sustainable construction, the company decided to build a new, state-of-the-art dry kiln line at the current plant territory. The ground-breaking ceremony of the New Dry Kiln project was held with participation of President of Azerbaijan Republic, H.E. Ilham Aliyev, and CEO of Holcim Group, Markus Akermann, on 14th of April, 2009.

From April 2012 Garadagh Cement is renamed to Holcim (Azerbaijan). It continues on the same commitments as Garadagh Cement: delivery of top performance cement products and services, research and development for creation of outstanding values to its customers, raise standards of Azerbaijani construction industry, passionate care for the environment and the communities, as well as, strong focus on health and safety of everyone involved in our activites and operations.










© 2012 Holcim (Azerbaijan) OJSC




Azərbaycan Respublikasının böyük potensialı var,
bu iqtisadi potensialdan səmərəli istifadə etmək
bizim borcumuzdur.
Heydər Əliyev

İnşaatda Dünya Təcrübəsi

# Bünövrədən zirvəyə inamla: Cənubi Qafqazın sement sənayesində yeni dövr

**10 iyul 2012-ci il tarixində yeni soba xəttinin açılış mərasimi**
**Qaradağ, Azərbaycan**





## Holcim (Azərbaycan) ASC-nin Baş Direktoru Raul Valdburger tərəfindən ön söz

10 iyul 2012-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyev və Holcim MMC-nin Baş İcraçı Direktoru cənab Bernard Fontana Holcim (Azərbaycan) ASC-nın yeni, quru üsulla işləyən sobasının açılış mərasimində iştirak etmişdir. Müasir quru üsul ilə istehsal edən yeni soba bütün Cənubi Qafqaz regionunun sement sənayesində yeni eranın başlanğıc nöqtəsidir. Quru istehsal üsulu Avropada geniş yayılmış ən qabaqcıl texnologiyadır; çunki o, yanacaq sərfiyyatı və ətraf mühitə təsir baxımından ən səmərəli hesab olunur. 300 milyon avro təşkil edən bu investisiya Azərbaycanın qeyri-neft sektorunda ən böyük investisiya olmaqla yanaşı, məhz yerli məhsulların istehsalını dəstəkləməklə ölkənin daha da inkişaf etməsinə töhfə verəcək.

İstehsal avadanlığı təkmilləşdirilmiş və dörd köhnə yaş üsulla işləyən sobalar quru üsulla işləyən bir soba ilə əvəz edilmişdir. Bu texnologiyanın tam istismara verilməsi sementin istehsal həcmini 30% artıracaq, yəni gündəlik 2600 tondan 4000 tona qədər (və ya illik 1.3 milyon tondan 1.7 milyon tonadək). Holcim (Azərbaycan) ASC öz fəaliyyəti istiqamətində ətraf mühitə təsiri azaltmaq, karbon tullantılarının havaya atılmasını minimuma endirmək, innovativ alternativ yanacaq resurslarından istifadə etmək və davamlı istehsalat dövrü üçün tullantıllardan istifadə etməklə fəaliyyətini davam etdirir.

Sobanın inşası ilə yanaşı dəmir yol boşaltma məntəqəsi, saxlanma zonaları, silolar, yeni departament, anbar və texniki binanın tikintisi, yüksək effektivli separatorun quraşdırlması ilə 3 mövcud sement dəyirmanlarının təkmilləşdirilməsi və Qərbi Şaxqaya əhəngdaşı karxanasının açılışı da həyata keçirilmişdir. Zavoddan təxminən 20 km uzaqda yerləşən bu karxana yeni xırdalayıcı qurğu, dəmir yol boşaltma məntəqəsi, dəmiryolu, yardımçı binalar və digər infrastrukturlarla təmin olunmuşdur. Əvvəlki sobadan fərqli olaraq yeni quru üsullu soba 50% az enerji tələb edir, ətrafa atılan tozun həcmini 50 dəfə və illik su sərfini 500 000 $m^3$ qədər azaldır. Layihənin uğurla həyata keçməsi üçün GARA6 komandası bütün səbr və bacarıqlarını nümayiş etdirmişlər.

Təbii resurslardan səmərəli istifadənin və tullantıların utilizasiyasının bir hissəsi kimi 2010-cu ildən bu günə kimi təxminən 750 000 ton neft tullantılarından alternativ yanacaq mənbəyi kimi istifadə edilmişdir. İnnovativ alternativ yanacaq mənbəyi texnologiyaları ətraf mühitə atılan tullantıların həcmini əhəmiyyətli dərəcədə azaldacaq. Belə ki, ətraf mühitə atılan karbon qazının ($CO_2$) və tozun miqdarının azalmasına və təbii ehtiyatların səmərəli istifadəsinə öz müsbət təsirini göstərəcək. Ümumiyyətlə, bu texnologiyanın tətbiqi Holcimin “öz sinfində ən yaxşı” olmaq istəyinə əsaslanır və davamlılıq göstəricilərini daim yaxşılaşdırır.

Dünyanın 70-dən çox ölkəsində fəaliyyət göstərən Holcim şirkətində 80.000 əməkdaş çalışır. Şirkət dünyanın aparıcı sement, doldurucu (qırmadaş, çınqıl və qum), həmçinin hazır beton və asfalt təchizatçısıdır. 2003-cü ildə Holcim Dow Jones Sustainability World Index (Dou Cons Ümumdünya Davamlılıq İndeksinin) üzvü kimi qeydə alınmışdır. Şirkət tikinti materialları sənayesində dünyanın ən qabaqcıl şirkətlərindən biri kimi tanınır. Holcim həmçinin “FTSE4Good Sustainability İndeksi”ndə də sıralanır.

## Holcim – İnşaatda dünya təcrübəsi!

© 2012 Holcim (Azərbaycan) ASC



## President Ilham Əliyev Qaradağ rayonunda Holcim (Azərbaycan) ASC-nin yeni sement zavodunun açılışında iştirak etmişdir

Əziz dostlar!
Hörmətli xanımlar və cənablar!
Mən sizin hamınızı Holcim (Azərbaycan) sement zavodunun açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Üç il bundan əvvəl biz burada yeni sement zavodunun təməl daşını qoyduq. Mən çox şadam ki, üç ildən sonra gözəl, müasir, yeni sement zavodu fəaliyyətə başlayır. Əminəm ki, bu zavodun fəaliyyəti nəticəsində Azərbaycan iqtisadiyyatı, Azərbaycanın sənaye potensialı daha da artacaq və möhkəmlənəcəkdir.

Qaradağ sement zavodu 1950-ci illərdə yaradılmışdır. Əlbəttə vaxt keçdikcə texnologiya köhnəlmişdir və müasir tələblərə cavab vermirdi. Baxmayaraq ki, bu sahədə dünyanın aparıcı şirkəti olan Holcim on ildən artıqdır bu zavodu işlədir və buraya sərmayə qoymuşdur. Yeni zavodun tikilməsi çox vacib idi. İsveçrə ilə Azərbaycan rəhbərliyi arasında aparılmış danışıqlar və əldə edilmiş razılaşmalar nəticəsində yeni zavodun tikintisi haqqında qərar qəbul edildi. Mən o günləri yaxşı xatırlayıram. Xatırlayıram ki, qərar verildikdən dərhal sonra – 2009-cu ildə yeni zavodun təməl daşı qoyuldu. Bu zavod bütün müasir standartlara cavab verir. Burada ən son texnologiyalar tətbiq edilib. Çox sevindirici haldır ki, zavod ekoloji cəhətdən tamamilə təhlükəsizdir.

Azərbaycanda ekologiya məsələlərinə çox böyük diqqət göstərilir, ekoloji tədbirlər həyata keçirilir. Biz bu zavodun ekoloji cəhətdən təhlükəsiz olmasını alqışlayırıq. Bu zavod, eyni zamanda, İsveçə-Azərbaycan əməkdaşlığının nümunəsidir. İki ölkə arasındakı əlaqələr sürətlə inkişaf edir, qarşılıqlı rəsmi səfərlər, qarşılıqlı heyətlərin səfərləri həyata keçirilir. Bizim çox gözəl siyasi və iqtisadi əlaqələrimiz vardır. Holcim zavodunun Azərbaycanda fəaliyyətə başlaması qarşılıqlı inamın təzahürüdür. Eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR İsveçrənin enerji sənayesinə böyük həcmdə sərmayə qoyur. İsveçrədən Azərbaycanın qeyri-neft sektoruna sərmayə qoyulur, Azərbaycandan isə İsveçrənin enerji sektoruna sərmayə qoyulur. Bu, özlüyündə gözəl bir göstəricidir. Çünki əlaqələrimiz çoxşaxəlidir və qarşılıqlı maraqlar əsasında qurulubdur. Mən çox şadam ki, bu zavod, eyni zamanda, İsveçrə-Azərbaycan dostluğunu da gücləndirəcəkdir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafına çox böyük diqqət göstərilir. Bu, bizim siyasətimizin əsas istiqamətidir. Bu ilin altı ayında Azərbaycanda qeyri-neft sektoruna aid olan iqtisadiyyat 11 faizdən çox artmışdır. Yəni, bu, görülən işlərin məntiqi nəticəsidir. Biz enerji resurslarımızdan səmərəli şəkildə istifadə edərək qeyri-neft sektoruna sərmayə qoymaqla, ölkəmizi hərtərəfli şəkildə inkişaf etdiririk.

Zavodun fəaliyyətə başlaması yerli istehsalın gücləndirilməsi məsələlərini də həll edir. Bu məsələyə də böyük diqqət göstərilir. Biz istəyirik ki, Azərbaycanda istehlak olunan əsas məhsullar ölkəmizdə istehsal edilsin. Sement zavodunun fəaliyyətə başlaması nəticəsində, əminəm ki, bir neçə ildən sonra biz sementlə də özümüzü təmin edəcəyik. Azərbaycanda sementin illik istehlakı 3,3 milyon tondur. Holcim (Azərbaycan) sement zavodunun istehsal gücü 1,7 milyon tondur.

© 2012 Holcim (Azərbaycan) ASC



Nəzərə alsaq ki, bu yaxınlarda Naxçıvanda 300 min tonluq zavod istifadəyə verilmişdir, yaxın zamanlarda Ağstafada 1 milyon tonluq zavod istifadəyə veriləcəkdir, Qaradağ rayonunda isə 2 milyon tonluq zavod inşa edilir, bir neçə ildən sonra Azərbaycanda istehsal olunan sementin həcmi tələbatımızdan daha da artıq olacaqdır. Ölkəmizin iqtisadiyyatı çox sürətlə inkişaf edir. Gələcəkdə, şübhəsiz, daxili tələbat daha da artacaqdır.

Çünki ölkəmizdə böyük tikinti və quruculuq işləri aparılır. Bir sözlə, bu zavodun fəaliyyəti nəticəsində ümid edirəm ki, gələcəkdə sement sahəsində ixrac imkanlarımız da yaranacaqdır.

Zavodda işləyənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Bu da çox müsbət haldır. Zavodun fəaliyyəti nəticəsində yüzlərlə insan işlə təmin edilir. Mən burada gəncləri görürəm, buna çox sevinirəm. Çünki gənclər bu işlərdə daha da fəal iştirak etməlidirlər. Ən müasir texnoloji proseslərdə fəal iştirak etməlidirlər. Azərbaycan gəncləri bütün sahələrdə daha da fəal olmalıdırlar. Yerli kadrların hazırlanması, yerli istehsalın yaradılması, idxalı əvəzləyən məhsulların buraxılması, xarici investisiyaların cəlb edilməsi - bax, biz bu zavodun timsalında bütün bu mühüm amilləri görürük.

Xatırladıram ki, zavodun təməli 2009-cu ildə qoyulmuşdur. 2009-cu il dünyada maliyyə və iqtisadi böhranın ən ağır ili kimi tarixdə qalmışdır. Bu böhrana və bəzi bankların ağır vəziyyətə düşməsinə baxmayaraq, Holcim şirkəti 2009-cu ildə Azərbaycan iqtisadiyyatına böyük sərmayə qoyulması haqqında qərar vermişdir. Yəni, bu, Azərbaycan iqtisadiyyatına inamın, Azərbaycanda investisiya iqliminin çox yüksək səviyyədə olmasının təzahürüdür. Biz, əlbəttə ki, bu addımı yüksək qiymətləndiririk.

Mən bu gün fürsətdən istifadə edərək Holcim şirkətinin rəhbərliyinə, xüsusilə şirkətin keçmiş prezidenti cənab Akermana xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Biz cənab Akerman ilə bərabər bu zavodun tikintisinə əvvəldən qərar verən insanlarıq. Bizim qərarlarımız icra edilir. Üç il bundan əvvəl burada zavodun təməl daşını bərabər qoyduq və bu gün gözəl açılış mərasimində iştirak edirik.

Azərbaycanda, ümumiyyətlə, investisiya iqlimi çox müsbətdir. Son 17 il ərzində Azərbaycanda 120 milyard dollardan çox, təkcə keçən il 15 milyard dollar sərmayə qoyulmuşdur.

© 2012 Holcim (Azərbaycan) ASC




Bu il isə təqribən 18 milyard dolar sərmayə qoyuluşu gözlənilir. Bundan sonrakı illərdə də investisiya qoyuluşu əminəm ki, yüksələn xətlə davam edəcək və bu bizə imkan verəcək ki, ölkəmizin bütün infrastruktur layihələrini icra edək, bütün köhnəlmiş infrastrukturu yeniləşdirək, güclü sənaye potensialı yaradaq.

Zavodun Qaradağ rayonunun ərazisində yerləşməsi əlbəttə ki, təbii səbəblər əsasında mümkün olubdur. Çünki burada, yaxında zavodun məhsul istehsalı üçün lazım olan xammal yataqları vardır. Sovet dövründə bu zavod burada tikilmişdir. Əlbəttə, Qaradağ rayonunun gələcək sənaye inkişafı ilə bağlı bizim konkret fikirlərimiz vardır. Mən dəfələrlə demişəm ki, Azərbaycanın yeni sənaye mərkəzlərindən biri də Qaradağ rayonu olmalıdır. Qaradağ rayonu inkişaf edir. Burada həm güclü sənaye potensialı yaradılır, həm də, turizm obyektlərinin yaradılması, tikintisi məsələləri də gündəlikdədir.

Bir sözlə, bugünkü açılış mərasimi çox sevindiricidir. Eyni zamanda, onu göstərir ki, Azərbaycanın inkişafı düzgün istiqamətdə gedir. Xarici investorlar bizə inanır, biz xarici investorlar üçün gözəl şərait yaradırıq. Hökumət nümayəndələri ilə böyük şirkətlər arasında əlaqələr də çox müsbətdir. Yerli istehsalın artırılmasında xarici sərmayədarlar bizə kömək göstərirlər. Eyni zamanda, zavodda tətbiq olunan texnologiya ən son, ən müasir texnologiyadır. Əlbəttə ki, Azərbaycanda bu texnoloji inkişaf, elmi tərəqqi, inkişaf məsələləri daha dolğun şəkildə öz həllini tapır.

Əziz dostlar, mən bir daha bugünkü mərasimdə Holcim şirkətinin rəhbərliyinə, cənab Akermana və Holcim şirkətinin yeni rəhbərinə minnətdarlığımı bildirmək istəyirəm. Sizin hamınızı bu zavodun açılışı münasibətilə təbrik edirəm. Fürsətdən istifadə edərək tərəfdaşlara, bizim investorlara, xarici investorlara bir daha müraciət etmək istəyirəm ki, Azərbaycan xarici investisiyalar üçün çox gözəl yerdir. İnvestisiyalar burada qorunur. Biz bu investisiyaları alqışlayırıq, xarici investorlar üçün bütün şəraiti yaradırıq və bundan sonra da yaradacağıq. Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram.
Sağ olun!

© 2012 Holcim (Azərbaycan) ASC



## İsveçrənin Azərbaycandakı səfiri xanım Sabine Ulmann Şaban çıxış edərək dedi:

Cənab Prezident, cənab nazir, cənab Fontana,
Hörmətli qonaqlar!

Cənab Prezident, Holcim şirkətinin yeni zavodunun rəsmi açılışında iştirak etdiyinizə görə Sizə dərin təşəkkürümüzü bildiririk və Siz bu gün öz iştirakınız ilə İsveçrəni və Holcim şirkətini şərəfləndirdiniz. Bu tədbirə qatılmaq məqsədi ilə yanvar ayında Davosda cənab Akerman dəvəti təqdim etdikdə Siz bu dəvəti tərəddüd etmədən qəbul etdiniz.

Azərbaycan və İsveçrə bir çox sahələrdə əla tərəfdaşdırlar. Holcim şirkətinin yeni layihəsinin reallaşması bu münasibətlərin canlı olmasının sübutudur. Sizin və hökumətinizin dəstəyi olmadan bu nailiyyət mümkün olmazdı. Yaxşı tərəfdaş olmaq üçün dövlətlər də insanlar kimi bir-birinə etimad göstərməlidirlər. Azərbaycan ilə İsveçrə arasında yaxşı münasibətlərin əsas cəhəti qarşılıqlı etimad və hörmətdir. Bu iki keyfiyyət olmadan Holcim heç vaxt Azərbaycanın qeyri-neft sektorunda vacib hissə ola bilməzdi. Bu etimad olmadan Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti isə, öz növbəsində, İsveçrənin neft sektoru bazarında mühüm rol oynamaq üçün bizim ölkəyə heç zaman gəlməzdi.

Azərbaycanın və İsveçrənin bu iki şirkəti ölkələrimiz arasında kommersiya sahəsində yaxşı əməkdaşlığın əla nümunəsidir. İsveçrənin ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayan kiçik bir şəhəri vardır. Bu şəhər Davos adlanır. Öz gözəl təbiəti və xizəksürmə yerləri ilə tanınan İsveçrənin Alp dağlarındakı bu kiçik şəhərinin adı Dünya İqtisadi Forumu ilə bağlıdır. Bu biznes dairələrini, siyasətçiləri və cəmiyyətin digər liderlərini bir araya gətirərək, dünyadakı durumun yaxşılaşdırılmasına çalışan beynəlxalq təşkilatdır. Cənab Prezident, Davos uzun illərdir ki, Sizi öz qonaqları sırasında görməkdən fərəhlənir. Siz bu tədbirin mühüm iştirakçısısınız və dünyanın sabahının formalaşdırılmasına sadiqsiniz.

2009-cu ildə biz burada təməlqoyma mərasimini keçirdik. İndi isə bu gün artıq nailiyyət göz qabağındadır və bütün bu işlər həm Azərbaycan, həm İsveçrə tərəfdaşlarının dəstəyi olmadan mümkün olmazdı. Cənab Prezident, bu uğurun əldə edilməsi üçün Sizin verdiyiniz dəstək həlledici idi. Həmçinin burada çalışan azərbaycanlı işçilərin, Holcim (Azərbaycan) və Holcim Şirkətlər Qrupunun İsveçrədə olan rəhbərliyinin səyləri məhz bu işdə mühüm rol oynadı. Mən bu nailiyyəti mümkün edən bütün şəxsləri bu münasibətlə təbrik etmək istəyirəm. Bu, çox mühüm bir nəticədir. Holcim Şirkətlər Qrupu dünyanın 70 ölkəsində fəaliyyət göstərir və fəaliyyət sahəsində mühüm şirkətlərdən biri hesab olunur. Holcim Şirkətlər Qrupu fəaliyyətini güclü şəkildə saxlamağa nail olmuşdur, çünki bu şirkət, həmçinin ətraf mühitin qorunmasına da əhəmiyyət verir.

Cənab Prezident, Sizin qeyd etdiyiniz kimi, ətraf mühitin qorunması, təmiz, yeni, müasir texnologiyalardan istifadə həm Azərbaycan, həm İsveçrə, həm də Holcim şirkəti üçün vacib məsələlərdən biridir. Əslində, bu gün açılışında iştirak etdiyimiz yeni zavod məhsulların istehsalı üçün məhz ən yeni istehsal xəttini özündə əks etdirir və artıq bunun istismara verilməsi Holcim şirkəti dünyanın bir çox yerlərində oxşar layihələri həyata keçirməsində nümunə kimi çıxış edəcəkdir. Yeni, müasir zavodun istifadəyə verilməsi, həmçinin yeni iş yerlərinin açılması ilə də bağlıdır. Bu da mühüm əhəmiyyət kəsb edir.

Cənab Prezident, hörmətli qonaqlar!

Bugünkü tədbir Azərbaycan ilə İsveçrə arasında iqtisadi münasibətlərin inkişafının təzahürüdür və mən tam əminəm ki, gələcəkdə bu sahədə bizim yeni nəticələrimiz olacaqdır. Bu nailiyyəti mümkün edən hər bir şəxsi bir daha təbrik etmək istərdim. Sağ olun.

© 2012 Holcim (Azərbaycan) ASC



## Holcim şirkətinin Baş İcraçı Direktoru Bernard Fontana çıxış edərək dedi:

Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri
Cənab İlham Əliyev!
Cənab nazir Mustafayev!
Hörmətli xanım səfir Ulmann!
Hörmətli qonaqlar!

Cənab Prezident! Yeni zavodun rəsmi açılışı münasibətilə bu gün bizimlə olmağınızdan Holcim (Azərbaycan) və mən xüsusi şərəf hissi duyuruq.

Mən 2012-ci ildə Davosda Dünya İqtisadi Forumunda keçmiş baş icraçı direktor cənab Markus Akermanın dəvətini qəbul etdiyinizə görə Sizə səmimi qəlbdən minnətdarlığımı bildirirəm.

Bu cür mühüm layihəyə dəstək verdiyinizə görə, burada - Qaradağda rəhbərliyimiz, işçilərimiz adından və Holcim Şirkətlər Qrupunun adından Sizə təşəkkürümüzü bildiririk.

Holcim Şirkətlər Qrupu və Holcim (Azərbaycan) bu vacib layihə üçün lazımi icazələrin və lisenziyaların verilməsinə gəldikdə, hökumət qurumları ilə çox sıx əməkdaşlıq aparmış və onların dəstəyini almışdır. Əslində verilən bu dəstək çox mühüm idi. Mən çox şadam ki, bu gün biz hamımız yeni zavodun açılışı mərasimində birgə iştirak edirik. Böyük fərəh hissi ilə qeyd edirəm ki, bizim burada yatırdığımız sərmayənin həcminə gəldikdə bu, Azərbaycanın qeyri-neft sektoruna qoyulan xarici sərmayələr sırasında ən böyük sərmayələrdən biridir.

Bu, Azərbaycan ilə İsveçrə arasında məhz iqtisadi sahədə aparılan əməkdaşlığın ən böyük nümunəsidir. Həmçinin Holcim Şirkətlər Qrupu əldə etdiyi nəticədir. Dünyanın 70 ölkəsində fəaliyyət göstərərək sement, beton məhsulları istehsal edən Holcim Şirkətlər Qrupu bu baxımdan ən yüksək tələblərə cavab verən şirkətlərindən biridir. Həmçinin insan sağlamlığı, təhlükəsiz iş üslubunun tətbiq edilməsi və ətraf mühit baxımından yararlı məhsulların istehsalına gəldikdə, biz beynəlxalq səviyyədə tanınmış şirkətik.

Bildiyiniz kimi, bu il Holcim şirkəti 100 illiyini qeyd edir. Fəaliyyətə başladığı ilk anlardan Holcim Şirkətlər Qrupu daimi olaraq elə bir strateji xətt tutmuşdur ki, onun istehsal etdiyi məhsullar tikinti materialları sənayesində böyük keyfiyyətlə fərqlənsin. Lakin şirkətimiz bundan sonra da hər il keçdikcə yeni üsulların tətbiq edilməsində və yeni texnoloji proseslərin davamlı şəkildə mənimsənilməsində addımlarını davam etdirmək əzmindədir.

Holcim Şirkətlər Qrupu bundan sonra da məhz Azərbaycanda başladığı bu işləri davam etdirmək və əslində qazandığı uğurların sayını daha da çoxaltmaq fikrindədir. Bu baxımdan Holcim Şirkətlər Qrupu həm insan kapitalının formalaşdırılmasında, həm də yerli resursların bu işə daha da geniş şəkildə cəlb olunmasında, ətraf mühitin qorunmasında, yüksək keyfiyyətli məhsulların istehsalında, həmçinin maarifləndirmə proseslərinin aparılmasında qərarlıdır.

Biz son 13 il ərzində Azərbaycanda genişmiqyaslı fəaliyyətimizi davam etdirmişik. Bundan sonra da özümüz üçün müəyyən etdiyimiz məqsədlərə nail olmaq ənənəmizə sadiqik.Hər hansı bir tikinti işi beton tələb edir. Betonun alınması üçün də sementin istehsalı çox vacibdir. Təbii ki, inkişaf edən cəmiyyət və inkişaf edən iqtisadiyyata sement lazımdır. Holcim (Azərbaycan) keyfiyyətli tikinti materiallarının təchizatçısı kimi mühüm rol oynamağa sadiqdir. Biz bundan sonra da görəcəyimiz işlərin miqyasını genişləndirməkdə davam edəcəyik.

© 2012 Holcim (Azərbaycan) ASC



Mən bu fürsətdən istifadə edib öz işçilərimizə və Holcim (Azərbaycan) şirkətinin rəhbərliyinə həm keyfiyyətinə, həm də kəmiyyətinə görə Azərbaycana lazım olan qədər sementin istehsalında uğurlar arzulayıram.

Əslində burada çalışan heyət çox gözəl işi yerinə yetirir. Daxili tələbatın sürətlə artmasını nəzərə alaraq buna cavab verməyə çalışır.

Həm ətraf mühitin qorunması, həm texnoloji proseslərin daha məhsuldarlığı baxımından bundan sonra da bu yeni zavodun istisması ilə Holcim (Azərbaycan) ölkədə öz nailiyyətlərini daha da artırmaq fikrindədir.

İstismara verilən yeni zavodda müasir texnologiyaların tətbiq edilməsi nəticəsində havaya buraxılan zərərli maddələrin həcmi də gözəçarpan dərəcədə azalacaqdır.

Azərbaycanda bizim dəyərli alıcılarımıza, müştərilərimizin gözləntilərinə cavab vermək məqsədi ilə biz Qaradağ sement zavodunda keçmişdə mövcud olan sulu xətlərin əvəz edilməsi və məhsuldarlığın bu yeni istismar xətti ilə 30 faizə qədər artırılmasına nail olacağıq.

Cənab Prezident!
Hörmətli qonaqlar!

Holcim Şirkətlər Qrupu Azərbaycanda bu layihəni həyata keçirməklə uzunmüddətli tərəfdaşlığını bundan sonra da bir daha nümayiş etdirir. Holcim Şirkətlər Qrupu və Holcim (Azərbaycan), ümumiyyətlə, ölkənin inkişafına töhfə olaraq sement istehsalını bundan sonra da artıracaqdır. Əslində bu gün keçirilən bu tədbir aramızda olan mühüm əlaqələrin göstəricisidir. Bu, Holcim (Azərbaycan) ASC-nin ölkədə tutduğu mövqeyindən, onun Azərbaycanın gələcək inkişafına töhfəsindən və ona olan sadiqliyindən xəbər verir.

Diqqətinizə görə çox sağ olun!

© 2012 Holcim (Azərbaycan) ASC

# Holcim Azərbaycanda: mükəmməl fəaliyyət və innovasiya yönümlülük

1999-cu il ildə İsveçrənin Holcim şirkəti Qafqaz regionunun iri sement istehsalçılarından sayılan Qaradağ Sement zavodunun səhmlərinin böyük hissəsinə sahib oldu. Holcim 70% səhmlərinə sahib olmaqla şirkətin əsas səhmdarıdır. Azərbaycan İnvestisiya Şirkəti və AYİB – 20% səhmlərə, digər kiçik səhmdarlar isə digər 10% səhmlərə malikdirlər.

İqtisadi inkişafı və şirkətin davamlı inşaat öhdəliklərini nəzərə alaraq şirkət zavodun ərazisində yeni quru üsulla işləyən soba layihəsinin inşasına qərar verdi. Yeni sobanın təməlqoyma mərasimi 2009-cu ilin 14 aprel tarixində möhtərəm prezident cənab İlham Əliyev və Holcim MMC-nin Baş İcraçı Direktoru cənab Markus Akermanın iştirakı ilə həyata keçirilmişdir.

2012-ci ilin aprel ayından etibarən Qaradağ Sementin adı Holcim (Azərbaycan) ASC oldu. Beynəlxalq şirkət olaraq Holcim Azərbaycanda da eyni siyasəti davam etdirir. Yəni sementin yüksək keyfiyyətli olmasına ciddi nəzarət edir, müştərilərə yüksək xidmət göstərmək üçün tədqiqat aparır və inkişaf edir. Holcim şirkəti Azərbaycanın inşaat sənaye standartını daha da yüksəltməyə çalışır, ətraf mühitin və ictimaiyyətin qayğısına qalır, həmçinin fəaliyyətə cəlb olunan hər kəsin sağlamlıq və təhlükəsizliyinə böyük diqqət yetirir.







© 2012 Holcim (Azərbaycan) ASC